# Pedaqoji dəyərlər və onların təsnifatına dair mülahizələr

**Müseyib İlyasov**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri*
**E-mail:** museyibilyas@gmail.com

**Rəyçilər:** prof. F.A. Rüstəmov,
prof. Ş.Q. Əliyeva

**Açar sözlər:** dəyər, ünsiyyət, tələbat, münasibət, səriştə
**Ключевые слова:** ценности, общение, потребности, отношение, компетенция
**Key words:** value, communication, demand, attitude, competency

*Son illər dəyərlər anlamı içərisində pedaqoji dəyərlər anlamına da tez-tez rast gəlinir. Lakin çox vaxt tələbələr bu dəyərlərin nədən ibarət olduğunu və konkret olaraq onların pedaqoji proses üçün nə kimi əhəmiyyəti olduğunu aydınlaşdırmaqda çətinlik çəkirlər. Düzdür, bu haqda Azərbaycan dilində olan bəzi ədəbiyyatlarda ilkin anlayışlar verilmişdir (3, 63-71). Lakin respublikamızda bu sahədə davamlı tədqiqatlar aparılmadığından onun bəzi məqamlarının izahında çətinliklər yenə də qalmaqdadır. Buna görə də ona bir qədər aydınlıq gətirilməsi maraqlı olar.*

Pedaqogika elmi və praktik pedaqoji fəaliyyət üçün pedaqoji dəyərlər anlayışı, onun mahiyyətinin, funksiyasının və məzmununun nələrdən ibarət olmasının düzgün dərk olunması mühüm əhəmiyyətə malikdir. Fəaliyyət prosesində müəyyən normaların gözlənilməsi, onlara dəyər kimi qiymət verilməsi və onların qorunması təkcə şagirdlərin deyil, bütövlükdə cəmiyyətin nəzərində müəllimin və məktəbin nüfuzunun yüksəlməsinə mühüm təsir göstərir. Bu baxımdan pedaqoji dəyərlər ilk növbədə pedaqoji fəaliyyətin nizama salınması, onun maraqlı, məzmunlu və inkişafetdirici xarakter daşımasında özünü göstərir.

Dəyər – ayrı-ayrı insanların, qrupların və cəmiyyətin tələbatlarını, maraq və məqsədlərini ödəyən mənəvi və maddi əşya, hadisə və proseslərdən ibarətdir. Lakin mənəvi və ya maddi fakt və hadisə, proses və ya konkret əşya o zaman dəyər ola bilir ki, onlar ayrıca götürülmüş bir fərdin, yaxud insanların, bir qədər geniş şəkildə götürsək müəyyən qrupların, daha qlobal xarakterdə isə bütöv bir cəmiyyətin tələbatını, marağını və məqsədlərini ödəyə bilsin. Belə olduqda tələbata, marağa və məqsədlərə cavab verən bütün mənəvi və maddi şeylər dəyər ola bilir.

Dəyərlər dəyişməz və dönməz deyildir. Onlar özünün bir sıra spesifik xüsusiyyətləri və istiqaməti ilə tarixi dövrlərdən və şəraitdən asılı olaraq dəyişilə bilir. Belə ki, cəmiyyətin həyatının müxtəlif dövrlərində yaranan, formalaşan dəyərlərin bir qismi müxtəlif tarixi dövrlərdən digərinə də keçərək öz mahiyyətini saxlaya bildiyi halda, bəziləri yalnız müəyyən tarixi dövrlər üçün səciyyəvi olur. Məsələn, XII–XIV əsr Azərbaycanın intibah dövrü ədəbi-bədii mədəniyyəti, humanistlik ideyaları, həmçinin XIX əsr maarifçilik dövrünün humanist və demokratik ideyaları uzun bir dövr keçməsinə baxmayaraq indi də öz əhəmiyyətini saxlamışdır. Lakin həmin dövr üçün dəyər sayılan bir sıra hadisələr və ideyalar öz tarixi missiyasını yerinə yetirdiyindən bu gün dəyər kimi qəbuledilməzdir. Bu da onu göstərir ki, dəyərlər müxtəlif tarixi dövrlərin məhsulu kimi meydana gəlir və yenə də gəlməkdədir.

Onların bir qismi zamanları aşaraq yaşayır, bir qismi isə müəyyən vaxt üçün özünü göstərə bilir və müəyyən vaxtdan sonra dəyər funksiyasını itirir.

Dəyərlər çoxdur və çoxamillidir, maddisi də var, mənəvisi də. Bunlar da milli və ümumbəşəri olmaqla iki yerə ayrılır. Müasir dünyada ayrı-ayrı millətlərə məxsus müxtəlif dəyərlər sistemi mövcuddur. Milli dəyərlər ayrı-ayrı millətlər, xalqlar tərəfindən yaradılan və qorunub saxlanan dəyərlərdir ki, bunlar da həmin millətin və xalqın mənəviyyatının, milli mentalitetinin ölçüsü kimi özünü göstərir. Məsələn, Azərbaycan xalqına məxsus olan milli dəyərlər sırasında doğma torpağa bağlılıq, valideynlərə və böyüklərə hörmət, qonaqpərvərlik, xeyirxahlıq, xalq musiqisi, muğamlarımız, abidələrimiz, xalçalarımız, milli bayramlarımız, adət-ənənələrimiz və s. kimi mənəvi və maddi dəyərlər bir xalq, bir millət kimi bizi xarakterizə edir. Lakin dəyərlərimiz yalnız milli dəyərlərlə məhdudlaşmır. Xalqımızın mənəviyyatında, sosial həyatında, məişətində çoxlu sayda ümumbəşəri dəyərlər də vardır ki, bunlar bizim xalqımız üçün də xarakterikdir. Onun hansı dövrdə, hansı xalq, hansı millət tərəfindən yaradıldığı bilinməsə də sanki bizim milli dəyərlərimiz kimi sevilir, qorunur. Məsələn, ailə, uşaqlar, Vətən, torpaq, azadlıq, təhsil, əmək, din, dostluq, vətənpərvərlik, qonaqpərvərlik, böyük-kiçik münasibətləri və s. dəyərlər sistemini bu baxımdan xarakterik hesab etmək olar.

Ümumbəşəri dəyərlərdən fərqli olaraq milli dəyərlər özünün mühafizəkar xarakteri ilə seçilir. Belə olmasına baxmayaraq, onların bəşəri dəyərlərin formalaşmasında əsaslı rolu vardır. Başqa sözlə, bəşəri dəyərlər bütöv bəşəriyyət tərəfindən deyil, ayrı-ayrı xalqlar, millətlər tərəfindən yaradılaraq bir xalqdan digərinə ötürülmüş və özünün mahiyyətinə görə bir çox xalqlar tərəfindən mənimsənilərək ümumbəşəri səviyyədə qəbul edilən dəyərlərdir. Deməli, bəşəri dəyərlər — bir çox millətlər və xalqlar tərəfindən qəbul edilən, qorunub saxlanan və yüksək mənəvi normalar kimi qəbul edilən dəyərlərdir. Bu dəyərlərə nümunə kimi humanizm, ailə, uşaqlar, vətənpərvərlik, təhsil, insanların hüquq və azadlıqlarını və s. göstərmək olar. Yəqin ki, bunları heç bir millət, hətta xalqımızın bir çox mənəvi və maddi dəyərlərini oğurlayaraq "özününküləşdirmək" istəyən, çox vaxt isə utanmadan — "mənimdir" deyən mənfur erməni qonşularımız da "mənimdir" — deyərək özününküləşdirmək meylində olmazlar.

Hər bir şəxsin mədəniyyətinin əsasında onun milli və ümumbəşəri dəyərlərə olan münasibəti durur. Bu münasibətlərin necəliyi isə onun mədəniyyətinin göstəricisi kimi çıxış edir.

İnsanların fakt və hadisələrə münasibətləri onlara yanaşma tərzindən asılı olaraq çox zaman fərqli xarakterdə olur. Müxtəlif fakt, hadisə və predimetlər ayrı – ayrı şəxslər tərəfindən müxtəlif meyarlarla qiymətləndirildiyindən dəyərlərə münasibətlər də bəzən subyektiv olaraq bu və ya başqa şəkildə olur. Bir fərd və ya qrup, yaxud cəmiyyət üçün dəyər hesab edilən şey, başqa bir fərd, qrup və ya cəmiyyət üçün dəyər sayılmaya bilir. Elə buna görə də dəyər məsələsinə filosoflar, psixoloqlar, sosioloqlar, kulturoloqlar, pedaqoqlar elmin müvafiq sahələri baxımından müxtəlif aspektdən yanaşmışlar.

Mahiyyət etibarilə bütün predmetlər, sosial münasibətlər və təbii hadisələr müxtəlif meyarlar əsasında qiymətləndirilərək dəyər obyektləri kimi çıxış edə bilir. Burda hansı meyarlardan istifadə edilməsi, ona baxış bucağının necə olması mühüm rol oynayır.

Bu baxımdan dəyər hesab edilən predmetlər, sosial münasibətlər və hadisələr maddi və mənəvi olmaqla ayrı-ayrı fərdlərin, xalqların və bəşəriyyətin mənəviyyatının ölçüləri kimi özünü göstərir və bir dəyərlər sistemini yaradır. Dəyərlərin bu sistemi insanlar arasında sosial tənzimlənmənin daha yüksək keyfiyyəti səviyyəsində çıxış edir. Bu sistemdə bütövlükdə

cəmiyyətin və sosial qrupun qəbul etdiyi meyarlar özünü göstərir. Bu meyarların insanlar tərəfindən yüksək səviyyədə mənimsənilməsi şəxsiyyətin formalaşmasının və cəmiyyətdə normativ qayda-qanunun qorunub saxlanılmasının zəruri əsasını təşkil edir. Buna görə də bu meyarların hələ kiçik yaşlardan uşaqlara mənimsədilməsində valideynlərin, müəllimlərin və bütün cəmiyyətin üzərinə ciddi vəzifələr düşür. Pedaqoji dəyərlərin gözlənilməsi bu vəzifələrin yerinə yetirilməsində önəmli rol oynayır.

*Pedaqoji dəyərlərin (aksiologiyanın) mahiyyəti pedaqoji fəaliyyət, onun sosial rolu və şəxsiyyətin yaradıcı imkanları ilə müəyyən olunur.* Buna görə də "pedaqoji dəyərlər pedaqoji fəaliyyəti nizama salan norma və tələblər" (3, 66) kimi pedaqoji prosesdə mühüm əhəmiyyət kəsb edir.

Pedaqoji fəaliyyətin aksioloji xarakteristikası onun humanist mahiyyətini açır. Pedaqoji dəyərlər müəllimin nəinki tələbatlarını ödəməyə imkan verir, həm də onun sosial və peşə fəallığını humanist məqsədli etmək meyli kimi özünü göstərir.

Pedaqoji dəyərlərin təsir sferası özünü iki istiqamətdə göstərə bilir: 1) müəllim peşəsi və pedaqoji peşəkarlıqla bilavasitə bağlı olan peşəkarlıq dəyərləri; 2) müəllimin peşəkar fəaliyyətinin daxili mexanizmini tənzimləyən, fənnə, pedaqoji prosesin idarə olunmasına, onun məzmun və mahiyyətinin dərinləşdirilməsinə və humanist mahiyyət daşımasına gətirib çıxaran pedaqoji dəyərlər. Belə dəyərlər təlim-tərbiyə prosesində müəllim-şagird münasibətlərinin xarakterini dəyişir, onu pedaqoji təsir alətinə və vasitəsinə çevirir.

Pedaqoji dəyərlər pedaqoji prosesdə innovasiyalardır. Elə innovasiyalar ki, onlar şagirdləri pedaqoji prosesin fəal iştirakçısına çevirir, şagirdlər bilavasitə bu prosesin daxilində olur və 45 dəqiqə ərzində onunla yaşayırlar. Buna görə də pedaqoji dəyərlər yalnız təlim, tərbiyə təhsil və bu prosesdə qazanılan bilik, bacarıq və vərdişlərlə məhdudlaşmır. Həm də bunların mənimsənilməsi zamanı şagirdlərin bu prosesin daxilində olması, özlərini rahat hiss etmələri, dərsdən böyük zövq almaları və öyrənmək həvəsinin artmasından ibarətdir.

Pedaqoji dəyərlər digər mənəvi dəyərlər kimi həyatda öz-özünə yaranmır. Onlar cəmiyyətdəki siyasi, iqtisadi münasibətlərdən asılı olaraq yaranır və bütövlükdə pedaqogikanın, həmçinin təhsil təcrübəsinin inkişafına müsbət təsir edir. lakin bu asılılıq mexaniki olaraq baş vermir. Müəllim öz dünyagörüşündən, biliyindən, pedaqoji ustalığından, səriştə və bacarığından istifadə edərək pedaqoji mədəniyyətin inkişafı və onun formalaşması üsullarını, pedaqoji prosesdə mövcud olan və qarşıya çıxan ziddiyyətləri həll edir.

Pedaqoji dəyərlərin geniş dairəsi onların təsnifatını tələb edir. Bu dairə ümumi pedaqoji biliklər sistemində onların mahiyyət və statusunu təsəvvür etməyə imkan verir. Lakin pedaqoji dəyərlərin təsnifatı pedaqogikada hələ də tam işlənib hazırlanmamışdır və bunu təbii hesab etmək olar. Pedaqoji proses daim inkişafda və dəyişmədə olduğundan bunlar da dəyişir və inkişaf edir. Buna görə də pedaqogikada bir sıra yeni problemlər kimi pedaqoji dəyərlər probleminə də birmənalı yanaşmalar yoxdur. Bu sahədə tədqiqat aparan bir çox alimlər, məsələn, V.A.Slastenin, Q.İ.Çijakova, E.N.Şiyanov, İ.F.İsayev və b. onun təsnifatına müxtəlif aspektdən yanaşmaqla bir neçə təsnifat irəli sürmüşlər. Hətta pedaqogikadan dərslik və dərs vəsaitlərində pedaqoji dəyərlərin bir neçə təsnifatına rast gəlinir.

Görkəmli pedaqoq V.A.Slastenin onun aşağıdakılardan ibarət olduğunu qeyd edir:

— sosial və peşəkar həyatda şəxsiyyətinin özünün rolunun özünütəsdiqlə əlaqələndirilməsi dəyərləri (müəllim əməyinin sosial əhəmiyyəti, pedaqoji fəaliyyətin nüfuzluluğu, müəllim peşəsinin özünün yaxın ətrafı tərəfindən qəbul edilməsi);

— ünsiyyətdə tələbatları ödəyən və onun dairəsini genişləndirən dəyərlər (uşaqlarla ünsiyyət, uşaqlara sevgi və onlara bağlılıq, mənəvi dəyərlərin mübadiləsi və s.);

— yaradıcı, fərdin özünüinkişafına meyllənən dəyərlər (məsələn, peşəkar-yaradıcı bacarıqların inkişaf imkanları, dünya mədəniyyətinə qovuşma, sevimli əyləncə ilə məşğul olma və s.);

— özünütəsdiqi həyata keçirməyə imkan verən dəyərlər (məsələn, yaradıcılıq, müəllim əməyinin variativliyi, pedaqoji peşənin romantikliyi, sosial davranış, qüsurlu uşaqlara kömək və s.);

— praqmatik tələbatı ödəyən dəyərlər (qarantlaşdırılmış dövlət xidməti əldə etmək, əməyin ödənilməsi və məzuniyyətin uzunmüddətliliyi, xidməti vəzifələr və s.) (4, 74).

Pedaqoji dəyərlər sahəsində maraqlı tədqiqatları olan professor E.N.Şiyanov pedaqoj dəyərlərin təsnifatının əsasında şəxsiyyətin tələbatlarını və onların müəllim peşəsinə müvafiqliyini qoyaraq pedaqoji dəyərləri aşağıdakı dörd qrupda təsnif edir:

1) yaxın sosial dairədə, cəmiyyətdə şəxsiyyətin təsdiqi ilə əlaqədar dəyərlər;

2) ünsiyyətdə tələbatların ödənilməsilə əlaqəli dəyərlər;

3) özünütəkmilləşdirmə ilə əlaqəli dəyərlər;

4) utilitar - praqmatiklik və özündənrazılıqla əlaqəli dəyərlər (5).

E.N.Şiyanov eyni zamanda şagird, uşaq, şəxsiyyətin unikallığı və fərdiliyi, şagirdin inkişafı, şagirdlərin özünüreallaşdırması və s. kimi dəyərləri bu qruplarda təsnif edərək pedaqoji dəyərlərin konkret olaraq nələrdən ibarət olduğunu göstərir.

Pedaqoji ədəbiyyatlarda digər təsnifatlara da rast gəlinir. Məsələn, 1) pedaqoji fəaliyyətin humanist dəyərləri; 2) peşə-əxlaqi dəyərlər; 3) yaradıcı özünüreallaşdırma dəyərləri; 4) intellektual dəyərlər; 5) sosial dəyərlər; 6) estetik dəyərlər və s. kimi qruplarda da sistemləşdirilən dəyərlər az deyildir.

Professorlar Ə.Paşayev və F.Rüstəmov tərəfindən yazılan "Pedaqogika" dərsliyində pedaqoji dəyərlər: 1) müxtəlif sosial sistemlərdə fəaliyyət göstərən dəyərin xarakterini və məzmununu əks etdirən *sosial-pedaqoji dəyərlər,* 2) müəyyən təhsil təsisatları çərçivəsində pedaqoji fəaliyyəti nizama salan və istiqamətləndirən ideyalar, konsepsiyalar, normalar olan *qrupun pedaqoji dəyərləri* və 3) müəllim şəxsiyyətinin məqsədi, motivləri, ideyaları, durumu və dünyagörüşünün digər xüsusiyyətlərini əks etdirən *şəxsiyyətin pedaqoji dəyərləri* kimi təsnif edilir (3, 68).

Professor İ.N.İsayev isə problemə digər bir aspektdən yanaşır və müəllimin peşəkarlıq dəyərlərinin aşağıdakılardan ibarət olduğunu göstərir:

1) müəllimin pedaqoji – peşə fəaliyyətinin mahiyyətini və məqsədini açan *dəyər - məqsəd;*

2) müəllimin pedaqoji – peşə fəaliyyətinin tətbiqinin yol və vasitələrinin mahiyyətini açan *dəyər-vasitə;*

3) tam pedaqoji fəaliyyətinin funksiyalarının əsas mexanizmi kimi münasibətlərin mahiyyətini açan *dəyər-münasibət;*

4) pedaqoji fəaliyyətin həyata keçirilməsi prosesində psixoloji-pedaqoji biliklərin mahiyyət və məzmununu açan *dəyər-biliklər;*

5) pedaqoji peşə fəaliyyətinin subyekti kimi müəllim şəxsiyyətinin: bir-biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif fərdi, şəxsi, kommunikativ, peşəkarlıq keyfiyyətləri, xüsusi qabiliyyətlərdə aşkarlanan: yaradıcılıq qabiliyyəti, öz fəaliyyətini layihələşdirmək və onun nəticələrini görə bilmək və s. açan *dəyər-keyfiyyət* (4, 77-78).

Qeyd edək ki, bu təsnifat əksər müəlliflər tərəfindən qəbul edilir və tədqiqatlarda daha çox ona istinad edilir.

Pedaqoji dəyərlər müəllimin fəaliyyət yönümünü, davranışını və bütövlükdə pedaqoji fəaliyyətin humanist mahiyyətini əks etdirir. Eyni zamanda pedaqoji dəyərlər peşəkar

fəaliyyətin məzmununu və müəllim şəxsiyyətinin özünüreallaşdırma səviyyəsini cəmiyyətin tələbatına uyğunlaşdırmağa səbəb olur.

Pedaqoji dəyərlər tələbatlarla sıx əlaqədardır. Sosial həyat şəraitinin dəyişməsi ilə əlaqədar olaraq cəmiyyətin və şəxsiyyətin tələbatları da dəyişir, inkişaf edir. Bunlar pedaqoji dəyərlərə də öz təsirini göstərir, pedaqoji dəyərlər də dəyişir və inkişaf edir. Məsələn, hafizəyə əsaslanan təlimdən təfəkkürə əsaslanan təlimə, indi isə təfəkkürə əsaslanan təlimdən təxəyyülə əsaslanan təlimə keçidin olması ilə bağlı mühüm dəyişikliklərin olması pedaqoji dəyərlərə münasibətdə də müəyyən yeniliklərin olmasına öz təsirini göstərməkdədir.

Müasir təhsilimizdə bir sıra mütərəqqi meyllərin özünü göstərməsi, müasir metodikalardan və texnologiyalardan bəhrələnmə, müəllimlərin yaradıcılığa meyl etməsi və s. kimi məsələlər təlimin qeyri-ənənəvi forma və metodlarından istifadə edilməsinə səbəb olmuşdur. Bunlar da özlüyündə yeni pedaqoji dəyərlərin meydana gəlməsinə və vaxtilə mühüm dəyər sayılan bəzi keyfiyyətlərin qismən aradan çıxmasına səbəb olmuşdur.

Pedaqoji dəyərlər müəllim şəxsiyyətinin inkişaf göstəricilərini özündə əks etdirir. Onlar müəllimin həm bir şəxsiyyət, həm də tərbiyəçi-pedaqoq kimi inkişafına mühüm təsir göstərir. Müəllim əməyinin nüfuzluluğu, pedaqoji peşənin sosial mahiyyəti, müəllimin dövlət qarşısında məsuliyyəti, bir müəllim kimi özünütəsdiq imkanı, uşaqlara sevgi və hörmətlə bağlı dəyərləri buna misal göstərmək olar. Bu tipli dəyərlər həm müəllim, həm də şagird şəxsiyyətinin inkişafı üçün əsas rolunu oynayır. Bunlar *dəyər - məqsəd* kimi xarakterizə edilir. Pedaqoji məqsədlərdə müəllim fəaliyyətinin əsas mahiyyəti əks olunduğundan dəyər - məqsəd pedaqoji dəyərlər sistemində aparıcı rol oynayır.

Pedaqoji fəaliyyətin məqsədlərini həyata keçirən müəllim öz peşəkarlıq strategiyasını elə qurur ki, onun məzmunu özünün və təhsilalanların inkişafını təmin edir. Deməli, dəyər-məqsəd dövlətin təhsil siyasətini və pedaqogika elminin özünün inkişaf səviyyəsini əks etdirir. Onlar pedaqoji fəaliyyətin mühüm amili olmaqla dəyər-vasitə adlanan dəyərlərə təsir edir.

*Dəyər — vasitə* nəzəriyyə, metodologiya və pedaqoji texnologiyalardan ibarət olmaqla pedaqoji peşə təhsilinin əsasını təşkil edir. Müəllimlər onlara yiyələnmək nəticəsində formalaşmaqla yanaşı, pedaqoji fəaliyyətin keyfiyyətinin də yüksəlməsinə nail olurlar. Dəyər və vasitələr bir-biri ilə üzvi surətdə bağlı olan sistemlərdir.

*Dəyər-münasibət* müəllimlə pedaqoji prosesi onun subyektləri ilə, yəni şagirdlərlə qarşılıqlı şəkildə, məqsədyönlü və müvafiq şəkildə qurmağa imkan verir.

Müəllimin öz fəaliyyətinə münasibəti sabit və dəyişməz olaraq qalmır. Bu onun pedaqoji prosesə peşəkar münasibətindən səriştəli və yaradıcı yanaşmasından, şəxsi tələbatlarından, pedaqoji ustalığından və müəllim — şagird münasibətlərinin humanist istiqamətliliyindən asılı olaraq dəyişir. Dəyər münasibətlər sistemində müəllimin öz peşəsinə həm peşəkarlıqla yanaşması, həm də özünün şəxsiyyətinə olan münasibətləri eyni dərəcəli əhəmiyyət daşıyır. Yəni onun təhsilalanlarla qarşılıqlı münasibəti peşəkarlığından heç də geri qalmır.

Pedaqoji dəyərlər sistemində mühüm və həlledici yerlərdən birini *dəyər-biliklər* tutur. Bunlar olmasa nə dəyər-münasibətlər, nə də dəyər-keyfiyyətlər pedaqoji fəaliyyətin zəruri səviyyədə həyata keçirilməsini təmin edə bilməz. Dəyər-biliklərə psixoloji-pedaqoji və fənn bilikləri, həm də onları dərketmə bacarığı, onların seçimini həyata keçirmək bacarığı, pedaqoji fəaliyyətin konseptual şəxsi modeli və digərləri daxildir.

Müəllimin psixoloji-pedaqoji biliklərə dərindən yiyələnməsi, pedaqoji təfəkkürün yaradıcı priyomlarından istifadə etməsi, onun üçün yaradıcılıq şəraitinin olması, ona yeni informasiyaları izləməyə və müasir texnologiyalardan istifadə etməklə mühüm pedaqoji vəzifələri həll etməyə geniş imkan verir.

Pedaqoji dəyərlərin ən yüksək dərəcəsi *dəyər-keyfiyyətlərdir.* Bunlar müəllimin şəxsi və peşə keyfiyyətləri kimi pedaqoji prosesdə mühüm əhəmiyyət kəsb edir. Dəyər keyfiyyətlərdə müəllimin həm şəxsi, həm də peşəkar fəaliyyəti özünü büruzə verməklə onun şəxsi-peşəkar statusu özünü göstərir. Başqa sözlə, bu keyfiyyətlərdə onun müəllim kimi şəxsi-peşəkar mahiyyətinin nələrdən nələrdən ibarət olması üzə çıxır. Bunlar bir biri ilə əlaqəli fərdi, şəxsi, yəni özünəməxsus, status və peşəkar fəaliyyət keyfiyyətləri olmaqla müəllim modelini kompleks şəkildə tamamlayır, pedaqoji fəaliyyətdə təşkilatçılıq, proqnostik, kommunikativ, yaradıcı, empatik, intellektual, refleksiv, inteqrativ və s. törəmələr şəklində özünü göstərir.

Pedaqoji dəyərlər bir-birindən törəməklə və bir-biri ilə əlaqəli olmaqla bir dəyərlər sistemi, aksioloji model yaradır. Bu model özünü onda göstərir ki, dəyərlər bir zəncir kimi bir-birindən asılı olur və vahid sistem təşkil edir. Pedaqoji fəaliyyətdə bu dəyərlərin gözlənilməsi, onlara həqiqətən "dəyər verilməsi" onların müəllimin gündəlik fəaliyyətinə keçməsinə və onun fəaliyyət kredosuna çevrilməsinə səbəb olur.

Pedaqoji peşənin mahiyyəti, məna və əhəmiyyəti humanist xarakter daşıdığından və humanist prinsipləri əhatə etdiyindən pedaqoji dəyərlər də humanist təbiətə və mahiyyətə malik olur.

Pedaqoji dəyərlər özünün ümumiləşdirilmiş əksini pedaqoji fəaliyyətə olan motiv-dəyərlər münasibətlərində tapır ki, bu da şəxsiyyətin humanist istiqamətliliyinin göstəricisi kimi çıxış edir.

Müəllimin sosial və peşəkar davranışı onun pedqoji dəyərlərə öz fəaliyyətində necə yanaşmaqdan ibarətdir. Buna görə də hər bir müəllimin bu dəyərləri dərindən dərk etməsi, ona yiyələnməsi və pedaqoji fəaliyyətində onları reallaşdıra bilməsi onun bir səriştəli pedaqoq, nüfuzlu tərbiyəçi və əsl müəllim kimi formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

**Məqalənin aktuallığı.** Pedaqoji dəyərlər təhsilin humanistləşdirilməsi prinsipinin reallaşdırılmasında mühüm rol oynayır. O, pedaqoji prosesi nizama salan normalar kimi çıxış edərək özündə bir çox mənəvi keyfiyyətləri daşıyır. Pedaqoji dəyərlər pedaqoji peşəkarlığın əsas alətlərindən biri kimi çıxış edərək təlim-tərbiyə prosesinin mahiyyət və məzmununu dərinləşdirir. Müasir dövrdə bu dəyərlərin mahiyyəti, funksiyaları və pedaqoji prosesdə yeri və rolu haqqında müəllim və tələbələrin dəqiq və anlaşıqlı biliyə malik olması olduqca vacibdir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə "pedaqoji dəyərlər" anlayışının mahiyyəti, məzmunu, funksiyaları şərh edilmiş, onların pedaqoji ədəbiyyatlarda verilən təsnifatları təhlil edilərək sistemləşdirilmiş və pedaqoji dəyərlərin aksioloji modeli verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə pedaqoji dəyərlərin izahı və onların təsnifatı haqqında verilən təhlil və ümumiləşdirmələr müəllim və tələbələrin, həmçinin magistrantların və digər tədqiqatçıların pedaqoji dəyərlər haqqında biliklərini dərinləşdirəcək və onların aydın və məzmunlu şəkildə dərkinə səbəb olacaqdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2010.
3. Paşayev Ə. Rüstəmov F. Pedaqogika, Bakı: Nurlan, 2007.
4. Исаев И.Ф. Профессионально-педагогическая культура преподавателя. М.: Академия, 2002.
5. Сластенин В.А., Чижакова Г.И. Введение в педагогическую аксиологию. Учеб.

пособие. М.: Академия, 2003.
6. Шиянов Е.Н. Гуманизация образования и профессиональной подготовки учителя. М.: 1991.

**М. Ильясов**

## Педагогические ценности и лекции об их классификации

## Резюме

Педагогические ценности, занимающие особое место и роль в системе ценностей, важны в педагогической деятельности как регулирующая функция образовательного процесса. Изучая этих ценностей как нормы и организация педагогической деятельности важны как средство повышения качества педагогического процесса. В статье рассматриваются различные классификации этих ценностей, проанализирована их сущность, а в педагогической литературе более привлекательны сущность и содержание педагогических ценностей, называемых ценность — цель, инструмент - ценность, отношение-ценность, знание-ценность и качество-ценность.

**M.Ilyasov**

## Pedagogical values and their considerations of classification

## Summary

Pedagogical values as regulatory function in the educational process have a special place and role in the value system are important in pedagogical activities. Teacher's obtaining these values and guiding them as a norm that regulates the pedagogical activities is important as improving the quality of the pedagogical process. The article deals with the various classifications of these values, their essence is analyzed, and the essence and content of pedagogical values called value-target, value-method, value-attitude, value-knowledge, value-quality, which are more appealing in pedagogical literature.

**Redaksiyaya daxil olub:** 26.02.2019